AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Yanvar 2021

M ü n d ə r i c a t

FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı 2

Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal 3

Buğdanın Rusiya Federasiyasında qiyməti 6

Arpanın dünya bazarı qiymətinə dair qısa icmal 6

Düyünün dünya bazarı qiymətinə dair qısa icmal 8

Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal 9

Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal 10

Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal 12

Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal 13

Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal 14

Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal 15

Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal 16

Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal 17

Soyanın dünya bazarı qiymətinə dair qısa icmal 17

Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal 18

Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal 20

Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal 20

Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal 21

Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal 22

Südün dünya bazarı qiymətinə dair qısa icmal 17

Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal 26

FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

(FAO-nun 4 Fevral 2021-ci il tarixli açıqlaması)

FAO-nun ərzaq qiymətləri indeksində yanvar ayında da artım qeydə alınmışdır.

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2021-ci ilin yanvar ayında orta hesabla 113.3 bənd təşkil edib, dekabr ayı ilə müqayisədə 4.4% (4.7 bənd), ötən ilin yanvar ayı ilə müqayisədə isə 10.6% (10.8 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** yanvar ayında orta hesabla 96.0 bənd təşkil edib, dekabr ayı ilə müqayisədə 1.0% (0.9 bənd) **çox**, ötən ilin yanvar ayı ilə müqayisədə isə 7.3% (7.6 bənd) **azdır.**
- **Süd Məhsullarının Qiymət İndeksi** yanvar ayında orta hesabla 111.0 bənd təşkil edib, dekabr ayı ilə müqayisədə 1.6% (1.7 bənd), ötən ilin yanvar ayı ilə müqayisədə isə 6.9% (7.1 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** yanvar ayında orta hesabla 124.2 bənd təşkil edib, dekabr ayı ilə müqayisədə 7.1% (8.2 bənd), ötən ilin yanvar ayı ilə müqayisədə isə 23.6% (23.7 bənd) **çoxdur.**
- **Bitki Yağlarının Qiymət İndeksi** yanvar ayında orta hesabla 138.8 bənd təşkil edib, dekabr ayı ilə müqayisədə 5.8% (7.7 bənd)**,** ötən ilin yanvar ayı ilə müqayisədə isə 27.7% (30.1 bənd) **çoxdur**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** yanvar ayında orta hesabla 94.2 bənd təşkil edib, dekabr ayı ilə müqayisədə 8.1% (7.0 bənd), ötən ilin yanvar ayı ilə müqayisədə isə 7.6% (6.6 bənd) **çoxdur.**

FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)



FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)



Mənbə: http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 9 Fevral 2021-ci il tarixli hesabatı əsasında hazırlanıb)

- 2020/2021-ci məhsul ili üzrə qlobal buğda istehsalı həcminin rekord həddə çataraq 773 milyon ton olacağı proqnozlaşdırılır.

Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton

		2018/2019	2019/2020	2020/2021
TƏKLİF	İlin əvvəlinə qalıq	287	283	300
	İstehsal	731	764	773
	Cəmi təklif	1018	1047	1074
TİCARƏT	İdxal / İxrac	174	191	195
TƏLƏB	Ərzaq və toxum	596	608	622
	Yem	139	139	148
	Cəmi istifadə	735	747	769
İLİN SONUNA QALIQ		283	300	304
DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %		***39.0***	***40.0***	***40.0***

Mənbə: *www.uswheat.org*

- Qlobal miqyasda məcmu təklifin həcm göstəricisinin 2019/2020-ci məhsul ili ilə müqayisədə 27 milyon ton artaraq 1074 milyon ton olacağı təxmin edilir.
- Dünya buğda ticarətinin 2020/2021-ci məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 4 milyon ton artaraq 195 milyon ton olacağı proqnozlaşdırılır.
- 2019/2020-ci məhsul ilinə nəzərən cari məhsul ilində əsas buğda ixracatçısı olan ölkələrdə ixrac edilə bilən buğdanın həcmi 0.89% artaraq 226 milyon ton olması proqnozlaşdırılır.
- 2019/2020-ci məhsul ilinə nəzərən 2020/2021-ci məhsul ilində dünyada buğda üzrə istehlakın 2.95% artaraq 769 milyon ton olacağı proqnozlaşdırılır.

- Proqnozlar reallaşacağı təqdirdə qlobal buğda ehtiyatlarının həcminin 2019/2020-ci məhsul ili ilə müqayisədə 1.33% artaraq 304 milyon ton olacağı gözlənilir. Buna uyğun olaraq, dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi də 40.0% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 65.9 milyon tona düşməsi, istehsal həcminin isə 2019/2020-ci məhsul ili ilə müqayisədə 2.8 milyon ton çox (408.1 milyon ton) olacağı gözlənilir. Bununla da, əsas ixracat ölkələri üzrə ümumi təklif səviyyəsi 3.6 milyon ton az (474.0 milyon ton) olacaq.
- Çində buğda ehtiyatlarının həcminin 2019/2020-ci məhsul ili ilə müqayisədə 1.97% artaraq 155 milyon tona çatması gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2020/2021-ci məhsul ilində istehsal həcminin 7.69% artaraq 140 milyon ton olması, ixracın isə 1.74% artaraq 64.4 milyon ton olması proqnozlaşdırılır.





Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.

Mənbə: www.uswheat.org

- **2018-2019-cu illər ərzində buğdanın dünya bazarı qiymətində qeyri-müəyyənlik müşahidə olunsa da, 2020-ci ilin dörd rübü ərzində artım qeydə alınmışdır. Aylıq müşahidə dövründə isə 2021-ci ilin yanvar ayında buğdanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 9.48% artaraq 237.9 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Buğdanın Rusiya Federasiyasında qiyməti

- **Rusiyadan ixrac edilən buğdanın qiymətində son 1 il ərzində qeydə alınan qeyri-müəyyənlik 2020-ci ilin sentyabr ayından artım ilə əvəz olunmuşdur. 2021-ci ilin yanvar ayında 1 ton buğdanın ixrac qiyməti əvvəlki aya nisbətən 9.45% artaraq 283.8 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**
- **Rusiyanın daxili bazarında buğdanın qiymətində də 2020-ci ilin sentyabr ayından etibarən qeydə alınan artım trendi 2021-ci ilin yanvar ayında azalma ilə əvəzləndi. 2021-ci ilin yanvar ayında 1 ton buğdanın qiyməti əvvəlki aya nisbətən 2.21% azalaraq 221.4 ABŞ dolları olmuşdur.**
- **2021-ci ilin yanvar ayı ərzində Qara dəniz və Azov dənizi portlarında buğdanın 1 tonunun qiyməti müvafiq olaraq 265.0 ABŞ dolları ilə 302.0 ABŞ dolları və 243.0 ABŞ dolları ilə 261.0 ABŞ dolları arasında dəyişmişdir.**



Mənbə: *http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic*



Mənbə: *https://www.apk-inform.com/en/prices*

Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Arpanın dünya bazarı qiymətində 2018-2020-ci illər ərzində qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2020-ci ilin üçüncü rübündə qeydə alınan artım dördüncü rübdə də davam etmişdir. Aylıq müşahidə dövründə isə 2020-ci ilin oktyabr ayından etibarən artım qeydə alınmışdır. 2021-ci ilin yanvar ayında arpanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 11.73% artaraq 125.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**



Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- **Düyünün dünya bazarı qiymətində 2018-2020-ci illərdə qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2020-ci ilin ikinci rübündə düyünün 1 tonunun dünya bazarı qiyməti kəskin şəkildə artsa da, 2020-ci ilin üçüncü rübündən etibarən azalma qeydə alınmışdır. Aylıq müşahidə dövründə isə qeydə alınan artım trendi 2020-ci ilin aprel ayında ən yüksək həddinə çatmış, daha sonra isə qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2020-ci ilin yanvar ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 3.85% artaraq 518.5 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində qarğıdalının dünya bazarı qiymətində qeyri-müəyyənlik qeydə alınmışdır. 2020-ci ilin ikinci rübündə qarğıdalının dünya bazarı qiymətində qeydə alınan kəskin azalma növbəti rüblərdə artım ilə əvəz olunmuşdur. Aylıq müşahidə dövründə isə qarğıdalının dünya bazarı qiymətində 2020-ci ilin sentyabr ayından etibarən artım trendi müşahidə edilmişdir. 2020-ci ilin yanvar ayında qarğıdalının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 16.37% artaraq 231.8 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

Dünya üzrə pambıq balansına əsasən 2020/21-ci məhsul ili ərzində pambığın istehsalında azalma müşahidə olunduğuna baxmayaraq, qlobal təklifdə 2019/20-ci məhsul ili ilə müqayisədə artım qeydə alınmışdır. Çinin pambıq istehsalında artım müşahidə olunmasına baxmayaraq digər ölkələrdəki azalma, o cümlədən dünya üzrə pambığın fabrik istehlakındakı artım qlobal ehtiyatlarda azalmaya gətirib çıxarmışdır.

Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*)

Milyon ton	2015/2016	2016/2017	2017/2018	2018/2019	2019/2020	2020/2021 Proqnoz
İlin əvvəlinə qalıq	23.2	19.7	17.5	17.7	17.4	21.5
İstehsal	20.9	23.2	27.0	25.8	26.6	24.9
Təklif	44.2	42.9	44.5	43.5	44.0	46.4
Fabrik istehlakı	24.7	25.3	26.8	26.2	22.3	25.5
İlin sonuna qalıq	19.7	17.5	17.7	17.4	21.5	20.8
Qalıq/İstehlak nisbəti	*79.6%*	*69.1%*	*66.0%*	*66.4%*	*96.4%*	*81.7%*

Cədvəl 2. Çinin pambıq balansı

Milyon ton	2017/18	2018/19	2019/20	2020/21 Proqnoz
İlin əvvəlinə qalıq	10.0	8.3	7.8	8.0
İstehsal	6.0	6.0	5.9	6.3
Təklif	17.2	16.4	15.3	16.7
Fabrik istehlakı	8.9	8.6	7.2	8.6
İlin sonuna qalıq	8.3	7.8	8.0	8.1
Qalıq/İstehlak nisbəti	*92.4%*	*89.8%*	*111.3%*	*94.1%*

Cədvəl 3. Çin daxil olmadan dünya pambıq balansı

Milyon ton	2017/18	2018/19	2019/20	2020/21 Proqnoz
İlin əvvəlinə qalıq	7.5	9.4	9.6	13.5
İstehsal	21.0	19.8	20.7	18.5
Təklif	28.5	29.2	30.3	32.1
Fabrik istehlakı	17.8	17.6	15.2	16.9
İlin sonuna qalıq	9.4	9.6	13.6	13.3
Qalıq/İstehlak nisbəti	*49.2%*	*48.9%*	*80.8%*	*65.9%*

Mənbə: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

- **2018-2020-ci illər ərzində pambığın dünya bazarı qiymətində azalma müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2020-ci ilin may ayından etibarən pambığın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. 2021-ci ilin yanvar ayında pambığın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 7.78% artaraq 1.94 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

- **Son 1 il ərzində dünya bazarında xam ipəyin qiymətində əsasən azalma trendi müşahidə olunmuşdur. 2021-ci ilin yanvar ayında 1 ton xam ipəyin qiyməti əvvəlki aya nisbətən 5.90% artaraq 51.48 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2021-ci ilin yanvar ayı ərzində dünya bazarında xam ipəyin 1 tonunun qiyməti 48.67 min ABŞ dolları ilə 51.88 min ABŞ dolları arasında dəyişmişdir.**



Mənbə: http://www.sunsirs.com/uk/sdetail-month--.html



Mənbə: http://www.sunsirs.com/uk/sdetail-week--.html

Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında quru baramanın qiymətində keçən ilin yanvar ayı ilə müqayisədə azalma qeydə alınmışdır. 2021-ci ilin yanvar ayında 1 ton quru baramanın qiyməti əvvəlki aya nisbətən 12.50% artaraq 16.29 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2021-ci ilin yanvar ayı ərzində dünya bazarında quru baramanın 1 tonunun qiyməti 14.50 min ABŞ dolları ilə 16.41 min ABŞ dolları arasında dəyişmişdir.**



Mənbə: http://www.sunsirs.com/uk/sdetail-month--.html



Mənbə: *http://www.sunsirs.com/uk/sdetail-week--.html*

Günəbaxan yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında günəbaxan yağının qiymətində 2020-ci ildə artım müşahidə olunmuşdur. 2020-ci ilin son iki rübündə də günəbaxan yağının dünya bazarı qiymətində kəskin artım qeydə alınmışdır. Aylıq müşahidə dövründə isə 2020-ci ilin aprel ayından etibarən artım trendi müşahidə olunmuşdur. 2021-ci ilin yanvar ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 8.29% artaraq 1551.1 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Yaşıl çayın dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində yaşıl çayın dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2021-ci ilin yanvar ayında yaşıl çayın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.57% artaraq 249.1 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində zeytun yağının dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. 2020-ci ilin üçüncü rübündə zeytun yağının dünya bazarı qiymətində artım qeydə alınsa da dördüncü rübdə azalma ilə əvəzlənmişdir. Aylıq müşahidə dövründə isə 2020-ci ilin iyun ayından etibarən qeydə alınan artım trendi noyabr ayında kəskin azalmışdır. 2021-ci ilin yanvar ayında zeytun yağının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 2.6 dəfə artaraq 3.47 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **Şəkərin dünya bazarı qiymətində 2018-2020-ci illərdə artım trendi qeydə alınmışdır. Aylıq müşahidə dövründə isə son 1 il ərzində qeyri-müəyyənlik müşahidə olunur. 2021-ci ilin yanvar ayında şəkərin 1 kiloqramının qiyməti əvvəlki ay ilə müqayisədə 8.36% artaraq 0.350 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: https://www.imf.org/en/Research/commodity-prices

Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində soyanın dünya bazarı qiymətində qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2020-ci ildə soyanın dünya bazarı qiyməti 2019-cu ilə nisbətdə 7.00% artaraq 349.9 ABŞ dolları/ton olmuşdur. Aylıq müşahidə dövründə isə soyanın dünya bazarı qiymətində 2020-ci ilin fevral ayından qeydə alınan azalma trendi iyun ayından etibarən artım ilə əvəz olunmuşdur. 2021-ci ilin yanvar ayında soyanın 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 13.66% artaraq 504.3 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində mal ətinin dünya bazarı qiymətində qeyri-müəyyənlik müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə mal ətinin dünya bazarı qiymətində müşahidə olunan azalma trendi 2020-ci ilin aprel ayından artım ilə əvəz olunsa da, iyul ayından etibarən qeyri-müəyyənlik qeydə alınır. 2021-ci ilin yanvar ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 4.33% artaraq 4.34 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**



Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Qoyun ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında 2018-ci və 2019-cu illərdə qoyun ətinin 1 kiloqramının qiyməti 2.57 ABŞ dolları səviyyəsində qərarlaşsa da, 2020-ci ildə 0.39% artaraq 2.58 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə son 1 il ərzində qeyri-müəyyənlik müşahidə olunur. 2021-ci ilin yanvar ayında isə qoyun ətinin 1 kiloqramının dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 9.64% artaraq 2.73 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**



Mənbə*: https://www.imf.org/en/Research/commodity-prices*

Donuz ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2018-2020-ci illər ərzində donuz ətinin dünya bazarı qiymətində qeyri-müəyyənlik müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə son 1 il ərzində qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2021-ci ilin yanvar ayında donuz ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 2.90% artaraq 1.42 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə*: https://www.imf.org/en/Research/commodity-prices*

Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində quş ətinin dünya bazarı qiymətində azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə son 1 il ərzində müşahidə olunan qeyri-müəyyənlik 2020-ci ilin oktyabr ayından artım ilə əvəz olunmuşdur. 2021-ci ilin yanvar ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə dəyişilməz qalaraq 2.46 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində qaba yunun dünya bazarı qiymətində azalma trendi qeydə alınmışdır. Aylıq müşahidə dövründə isə son 1 il ərzində müşahidə olunan qeyri-müəyyənlik 2020-ci ilin oktyabr ayından artım ilə əvəz olunmuşdur. 2021-ci ilin yanvar ayında qaba yunun 1 tonunun dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 2.38% artaraq 0.86 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**





Mənbə: *https://www.imf.org/en/Research/commodity-prices*

Südün dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-cu ildə ABŞ-da süd xammalının bazar qiymətlərində ötən illərə nəzərən kəskin artım müşahidə olunmuşdur. Avropa İttifaqı və Yeni Zelandiyada 2019-cu ildə ötən iki illə müqayisədə azalma qeydə alınsa da, bu göstərici 2015-ci ilə nəzərən yüksəkdir. Aylıq trenddə isə 2020-ci ilin dekabr ayında süd xammalının dünya üzrə sahədən satış qiymətində Avropa İttifaqında və Yeni Zelandiyada artım, ABŞ-da isə azalma müşahidə olunmuşdur.**



Mənbə:https://www.clal.it/en/index.php



Mənbə: https://www.clal.it/en/index.php

➢ **2020-ci ildə ABŞ-da quru südün bazar qiymətində ötən illərə nisbətən artım, Avropa İttifaqında isə azalma qeydə alınmışdır. Aylıq trenddə isə 2021-ci ilin yanvar ayında əvvəlki ay ilə müqayisədə quru südün 1 tonunun dünya bazarı qiymətində ABŞ-da azalma, Avropa İttifaqında isə artım qeydə alınmışdır.**



Mənbə: https://www.clal.it/en/index.php



Mənbə: https://www.clal.it/en/index.php

Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2018-2020-ci illərdə dünya bazarında diamonium fosfatın, potassium xloridin, kalsium fosfatın və üçqat super fosfat qiymətində qeyri-müəyyənlik, karbamidin qiymətində isə əsasən azalma trendi müşahidə olunmuşdur. 2021-ci ilin yanvar ayında əvvəlki ay ilə müqayisədə diamonium fosfatın, kalsium fosfatın, karbamidin və üçqat super fosfatın qiymətində artım, potassium xloridin qiymətində isə stabillik müşahidə olunmuşdur.**



Mənbə: http://www.indexmundi.com/commodities/?commodity=potassium-chloride
http://www.indexmundi.com/commodities/?commodity=dap-fertilizer
http://www.indexmundi.com/commodities/?commodity=rock-phosphate
http://www.indexmundi.com/commodities/?commodity=triple-superphosphate
http://www.indexmundi.com/commodities/?commodity=urea